# Azərbaycan-Türkiyə strateji tərəfdaşlığı regional təhlükəsizlik baxımından mühüm önəm daşıyır

***Zamanın məhrumiyyətlərlə dolu ağır təlatümlərinin yaratdığı siyasi böhrandan çıxa bilməyən Osmanlı dövlətinin hökuməti 1923-cü il oktyabrın 25-də istefaya getdi. Növbəti üç gün ərzində isə yeni hökumətin qurula bilməməsi ölkədəki vəziyyəti daha da mürəkkəbləşdirdi. Xalqın və dövlətin siyasi məsuliyyətini öz üzərinə götürən qazi Mustafa Kamal Ankara parlamentində Türkiyə Cümhuriyyətinin qurulduğunu elan etdi. Parlamentin 158 deputatı bu qərara yekdilliklə səs verdi və beləliklə, Mustafa Kamalın rəhbərliyi ilə yeni bir dövlətin əsası yaradıldı.***

***Dostluq və qardaşlıq üzərində qurulmuş Azərbaycan–Türkiyə əlaqələrinin bu gün dünyada bənzəri yoxdur. Bu əlaqələr tarixən qırılmaz tellərlə bir-birinə bağlı olan xalqlarımızın iradəsindən qaynaqlanır... Əminəm ki, Türkiyə–Azərbaycan həmrəyliyi və strateji müttəfiqliyi birgə səylərimizlə bundan sonra da xalqlarımızın mənafelərinə uyğun olaraq daha da möhkəmlənəcək və genişlənəcəkdir.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***




Mustafa Kamal Paşa Cümhuriyyətin elan olunduğu parlament toplantısında Türkiyə xalqının müqəddəratını gerçəkləşdirən tarixi çıxışında dedi: "Türkiyə Cümhuriyyəti məsud, müvəffəqiyyətli və müzəffər olacaq!".

Ötən 98 ildə çətin, ağır, eyni zamanda, şərəfli bir yol qət edən Türkiyə Cümhuriyyəti tarixin ağır sınaqlarından uğurla çıxmaqla bərabər, Mustafa Kamal Atatürkün tarixi vədini yaşatmağa müvəffəq oldu.

Məlum həqiqətdir ki, dövlət müstəqilliyi hər bir xalqın ən böyük dəyəri, sərvətidir. Müstəqilliyi əldə etməklə yanaşı, onu qoruyub saxlamaq da əsas şərtdir. Ötən 98 ildə Türkiyə Respublikası böyük öndər Mustafa Kamal Atatürkün yolu ilə inamla gedərək dövlət müstəqilliyini möhkəmləndirib, dünyanın inkişaf etmiş ölkələrindən birinə çevrilib.

Bu gün dünyanın siyasi xəritəsində mühüm mövqeyə, gücə malik Türkiyə XXI əsrin əvvəllərindən regionda və dünyada əsas söz sahiblərindən birinə çevrilib. Təsadüfi deyil ki, Türkiyə "Böyük İyirmilik" ölkələri içərisində ən sürətlə inkişaf edən iqtisadiyyata malik ölkələrdən biri kimi böyük nüfuz qazanıb.

İllərdir ki, Azərbaycan–Türkiyə əməkdaşlığı uğurla inkişaf edir. Ortaq maraqların və dəyərlərin birləşdirdiyi bu iki ölkə dünya miqyasında ən yaxın strateji müttəfiqlər kimi daim bir-birinin yanındadır. Azərbaycan–Türkiyə dostluq və qardaşlıq münasibətləri regionda əmin-amanlığın və sabitliyin qorunmasına mühüm töhfədir. Qarşılıqlı faydalı əməkdaşlıq, həyata keçirilən birgə layihələr strateji tərəfdaşlığın daha da möhkəmlənməsini şərtləndirir.

İki qardaş və dost ölkənin münasibətləri milli, mənəvi və mədəni dəyərləri ilə bir-birinə eyni köklərlə bağlı olan xalqlarımızın iradəsindən qaynaqlanır. Hazırda dünyada bir-birinə bu qədər yaxın, doğma olan ikinci bir nümunə göstərmək mümkün deyil. Bu mənada türk dünyasının böyük oğlu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir", ümummilli lider Heydər Əliyevin "Bir millət, iki dövlət" ifadələri bu münasibətlərin, bu əməkdaşlığın əsl mahiyyətini əks etdirir.



Onu da qeyd edək ki, müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanı tanıyan ilk dövlət Türkiyə olub. Müstəqilliyin ilk illərindən etibarən qardaş ölkə Azərbaycanın dövlət quruculuğu yolunda atdığı addımları daim dəstəkləyib, böyük dövlətlərin iştirak etdiyi tədbirlərdə Azərbaycan naminə haqq səsini ucaldıb. Ölkəmizin ən ağrılı problemi olan Qarabağ münaqişəsinin həllində Türkiyənin həmişə Azərbaycan xalqının yanında olması böyük dostluğumuzun, qardaşlığımızın ifadəsi və həmrəyliyimizin rəmzi kimi diqqət çəkib.

Qırx dörd günlük Vətən müharibəsi zamanı Türkiyənin Azərbaycana verdiyi güclü siyasi və mənəvi dəstək buna bariz nümunədir. Belə ki, savaş dövründə ilk günlərdən etibarən Türkiyə Prezidenti ardıcıl açıqlamalar verirdi ki, Azərbaycan yalnız deyil, Türkiyə Azərbaycanın yanındadır. Əslində, bu, bir çox ölkələr və beynəlxalq təşkilatlar üçün bir mesaj idi, yəni, "Ermənistana havadarlıq etməyin, haqq-ədalətin tərəfində olun" anlamını ifadə edirdi. Bu isə təbii ki, xalqımızı hədsiz sevindirir, qürurlandırır, belə bir şəraitdə tək, yalnız olmadığını göstərirdi.

Prezident İlham Əliyev bu məsələ ilə bağlı hələ Vətən müharibəsi zamanı çıxışlarının birində deyib: "Türkiyə bizə dəstək göstərir, lakin bu, siyasi dəstəkdir, bu, diplomatik dəstəkdir. Bu dəstək olmasaydı, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır" ifadəsi ilə bu çox açıq mövqe olmasaydı, çox güman ki, bu gün Ermənistan öz məqsədinə nail olmuş olardı. Bu da münaqişənin coğrafiyasının genişlənməsi və mümkün qədər çox ölkənin bu münaqişəyə cəlb olunmasından ibarətdir ki, bu ölkələr döyüş meydanında onlara kömək etsinlər".

Bəli, qardaşlıq missiyasını layiqincə yerinə yetirən Türkiyə İkinci Qarabağ müharibəsində olduğu kimi, savaş bitəndən indiyədək daim Azərbaycanın yanında olub, hər zaman ölkəmizə siyasi, diplomatik və mənəvi dəstək göstərib. Bakıda keçirilən möhtəşəm Zəfər paradında, "Şuşa Bəyannaməsi"nin imzalanması mərasimində, eləcə də bir neçə gün bundan əvvəl Azərbaycana səfəri çərçivəsində Zəngilanın Ağalı kəndində mətbuata bəyanatında da Qarabağın xilası, bərpası istiqamətində görülən işlərdən yaranan sevincini, fərəhini xalqımızla bölüşüb, ölkəmizin əvvəlki kimi tək olmadığını, arxasında dayandığını bütün dünyanın diqqətinə çatdırıb.

Azərbaycan ilə Türkiyə arasında münasibətlərin möhkəmlənməsində dövlətlərimizin başçılarının şəxsi dostluq əlaqələrinin və qarşılıqlı səfərlərinin xüsusi əhəmiyyəti var. Dövlətimizin başçısı İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında mövcud dostluq və qardaşlıq münasibətləri ikitərəfli əlaqələrimizin bütün sahələrdə daha da genişlənməsinə öz müstəsna töhfəsini verir.

İkitərəfli müstəvidə uğurla inkişaf edən əməkdaşlıq münasibətlərimizlə yanaşı, ölkələrimiz tərəfindən beynəlxalq təşkilatlarda da fəal qarşılıqlı dəstək nümayiş etdirilir. Beynəlxalq təşkilatlarda, ilk növbədə, BMT-də, İslam Əməkdaşlıq Təşkilatında hər iki dövlət daim bir-birini dəstəkləyir.

Bu gün qardaş ölkə ilə iqtisadi əlaqələr getdikcə güclənir. Bu qonşu dövlətdən idxalın artımında da özünü aydın göstərir. Yeri gəlmişkən, xatırladaq ki, 4,5 milyard dollarlıq ticarət dövriyyəsi ilə Türkiyə İtaliyadan sonra Azərbaycanın ən böyük ticarət tərəfdaşıdır. Bu, digər statistik rəqəmlərdə də aydın nəzərə çarpır. Belə ki, cari ilin fevralında Türkiyə ilə Azərbaycanın ticarət dövriyyəsi 194,26 milyon dollar təşkil edib ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 26,431 milyon dollar çoxdur. Bundan başqa, fevralda qardaş ölkədən respublikamıza ixrac 137,162 milyon dollara, Azərbaycandan idxal isə 57,098 milyon dollara çatıb.

Türkiyə Respublikası bütün sahələrdə olduğu kimi, kənd təsərrüfatında da Azərbaycanın etibarlı tərəfdaşıdır. Hər iki dövlət aqrar tədqiqatlar, təhsil, pambıqçılıq, toxumçuluq, baytarlıq, aqrar sığorta və digər sahələr üzrə sıx və səmərəli əməkdaşlıq edir. Kənd təsərrüfatı məhsulları üzrə qarşılıqlı ticarət əlaqələri getdikcə güclənir və bu sahədə ticarət dövriyyəsinin artırılması üçün birgə səy göstərilir. Azərbaycan Türkiyənin aqrar sahədə müasir texnologiyaların tətbiqinə dair təcrübəsindən yararlanmaqda maraqlıdır.

Azərbaycan və Türkiyə arasındakı iqtisadi əlaqələr həm də çoxtərəfli strateji əhəmiyyətli əməkdaşlığı əhatə edir. Bu, özünü daha çox enerji-nəqliyyat qovşaqlarını nəzərdə tutan layihələrlə büruzə verir. Bu layihələr 1994-cü ildə "Əsrin müqaviləsi" ilə qəbul edilən neft axtarış-kəşfiyyat işləri ilə başlayıb, sonrakı illərdə isə genişlənib. Azərbaycan və Türkiyənin də tərəfdaş olduğu nəhəng regional layihələrə Bakı–Tbilisi–Ceyhan, Bakı–Tbilisi–Ərzurum, Bakı–Tbilisi–Qars, TANAP və TAP misal göstərilə bilər. Bu layihələr regionda iqtisadi inteqrasiyanın güclənməsi, enerji təhlükəsizliyinin təminatında mühüm rol oynayır.

Bu beynəlxalq nəqliyyat və enerji layihələri Azərbaycan ilə Türkiyənin regionda mövqeyinin güclənməsində, beynəlxalq daşımalarda məsafə və daşıma müddətinin qısaldılmasında, strateji əhəmiyyətinin artmasında, regional enerji təhlükəsizliyinin təminatında, bu ölkələrin tranzit və ticarət əməliyyatları ilə yanaşı, digər sahələrdə gəlirlərin artımında, məşğulluğun həllində və əhalinin rifahının yüksəldilməsində əhəmiyyətlidir.

Azərbaycan ilə Türkiyə arasındakı iqtisadi münasibətlər tarixi-mədəni yaxınlığa və qarşılıqlı strateji tərəfdaşlığa əsaslanır. İkitərəfli iqtisadi əlaqələrdə çoxşaxəlilik və intensivlik müşahidə edilir. Bu əlaqələr ticarət, investisiya qoyuluşları və çoxtərəfli münasibətləri əhatə edən regional layihələrdə özünü daha qabarıq göstərir. Hazırkı iqtisadi tərəfdaşlıq həm Türkiyə və Azərbaycanın ölkə miqyasında, həm də region miqyasında nüfuzunun və iqtisadi gücünün artımında əhəmiyyətli rol oynayır. Türkiyə ilə sıx iqtisadi münasibətimizin böyük inkişaf potensialı vardır. Hər iki ölkə lideri mövcud iqtisadi əlaqələrin inkişafı üçün böyük səy göstərir.

***V.BAYRAMOV, "Xalq qəzeti"***